# AZƏRBAYCAN RESPUBLIKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/7** **15 yanvar 2019-cu il**

**Beynəlxalq Audit Standartlarının 2017-ci il versiyasının II cildinin, Kiçik və orta müəssisələr üçün Beynəlxalq Audit Standartlarının tərcüməsi və nəşri üzrə redaksiya heyətinin yaradılması barədə**

Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) tərcümə strategiyasının tələblərinə müvafiq olaraq və Azərbaycan Respublikası Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 2.1-ci “Beynəlxalq Audit Standartlarının 2017-ci il versiyasının II cildinin tərcüməsi və redaktəsi” və 2.2-ci "Kiçik və orta müəssisələr üçün Beynəlxalq Audit Standartlarının tərcüməsi və redaktəsi" bəndlərinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Beynəlxalq Audit Standartlarının 2017-ci il versiyasının II cildinin, Kiçik və orta müəssisələr üçün Beynəlxalq Audit Standartlarının tərcüməsi və nəşrini təmin etmək məqsədilə aşağıdakı tərkibdə redaksiya heyəti yaradılsın:

***Redaksiya heyətinin sədri***

Vahid Novruzov – Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor

***Redaksiya heyətinin katibi***

Elnur İbrahimov – Palatanın Hüquqi təminat və standartlaşdırma idarəsinin rəisi

***Redaksiya heyətinin üzvləri***

Qəşəm Bayramov – Palata aparatının rəhbəri
Nəcəf Talıbov – Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri
Vəli Rəhimov – Palatanın Maliyyə və təsərrüfat idarəsinin rəisi
İlqar Vəliyev – “Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan Respublikasındakı filialının idarəedici partnyoru
Namiq Abbaslı – “ANR Audit” MMC-nin direktoru, auditor
Nihad Axundov – "NZA AUDİT" MMC-nin direktoru, auditor
Səftər Vəlizadə – sərbəst auditor

2. Redaksiya heyətinə tapşırılsın ki:

- Beynəlxalq Audit Standartlarının 2017-ci il versiyasının II cildinin tərcüməsinin peşə redaktəsini və korrektəsini müvafiq plan-proqramda nəzərdə tutulmuş müddətdə həyata keçirməklə Beynəlxalq Audit Standartlarının 2019-cu ilin dekabr ayında nəşrini təmin etsinlər;
- Kiçik və orta müəssisələr üçün Beynəlxalq Audit Standartlarının tərcüməsinin peşə redaktəsini və korrektəsini müvafiq plan-proqramda nəzərdə tutulmuş müddətdə həyata keçirməklə 2019-cu ilin iyun ayında nəşrini təmin etsinlər.

3. Palata sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki, bir həftə müddətində bu sərəncamın Azərbaycan, rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**Palatanın sədri** **Vahid Novruzov**